# Astara rayonunun ən ucqar dağ kəndlərinin avtomobil yolları yenidən qurulur

**Respublikamızın hər yerində olduğu kimi, Astara rayonunda da tikinti-quruculuq və yol-abadlıq işləri geniş vüsət alıb. Astaraya hər bir səfərində mühüm obyektlərin, xüsusilə 2015-ci ilin aprelində dənizkənarı bulvarın, Deqədi-Pəlikəş avtomobil yolunun, çay emalı fabrikinin açılışında iştirakı və əhalinin firavan yaşamasına xidmət edən yeni layihələrin həyata keçirilməsi üçün sərəncamlar imzalaması möhtərəm Prezidentimiz cənab İlham Əliyevin xalqına olan sevgisinin nümunəsidir. Xalqımız da bizə sabitlik və inkişaf yolu bəxş edən Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin ətrafında sıx birləşib.**



Möhtərəm Prezidentimizin tapşırıqlarını həmişə rəhbər tutan rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev də yerlərdə əhali ilə tez-tez səyyar görüşlər keçirir, problemlərlə yerindəcə tanış olur, qaldırılan məsələlərə həssaslıqla yanaşır, həlli mümkün olan problemləri yerindəcə həll edir, digər məsələlər barədə əlaqədar orqanlar qarşısında məsələ qaldırır. Rayonun Toradi, Hamoşam, Asxanakəran və Motlayataq kənd sakinləri ilə keçirilən səyyar qəbul və görüşlərdə ucqar dağlıq ərazidə yerləşən bu kəndlərin sakinləri sıldırım və keçilməz qayalıqlar arasında salınmış yolların bərbad vəziyyətindən ciddi narazılıqlar edir, rayon mərkəzinə 2 saata çətinliklə getdiklərini bildirir, həmin yolların qaydaya salınması üçün tədbirlər görülməsini xahiş edirdilər.

Təxminən eyni relyefə malik Deqədi-Pəlikəş avtomobil yolunun çəkilişi ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamının uğurla yerinə yetirilməsi və həmin avtomobil yolunun asfaltlaşdırılması başa çatdırıldıqdan sonra açılışında ölkə başçısının şəxsən iştirakı bütün rayon ictimaiyyətinin nümayəndələri kimi, Taxtanəkəran-Toradi istiqamətində yerləşən kəndlərin sakinlərinin də böyük sevincinə və ruh yüksəkliyinə səbəb oldu. Onlar tam əmin idilər ki, həmin yolların yenidən qurulması məsələsi də öz uğurlu həllini tapacaqdır.

Ölkə Prezidenti möhtərəm İlham Əliyevin bu ilin 13 aprel tarixində Taxtanəkəran-Miki və Taxtanəkəran-Toradi avtomobil yolunun salınması ilə əlaqədar imzaladığı Sərəncam ən unudulmaz bir tarixi hadisə kimi yaddaşlardan silinməyəcək. Əminik ki, uzun müddət bu vətənpərvər, zəhmətkeş, məğrur insanların yaddaşından silinməyəcək.

Artıq bir neçə aydır ki, Prezidentin bu Sərəncamının icrası ilə əlaqədar Taxtanəkəran-Miki və Taxtanəkəran-Toradi avtomobil yollarının yenidən qurulması ilə əlaqədar tikinti təşkilatlarının kollektivləri ən müasir texnikanın köməyi ilə qızğın fəaliyyət göstərirlər. Qısa müddət ərzində keçilməz qayalıqlar dağıdılaraq təmizlənmiş, enişli və yoxuşlu yollar hamarlanmış, çınqıllar döşənmiş, bir sözlə yataq işləri yüksək keyfiyyətlə aparılmışdır. Taxtanəkəran kəndindən Hamoşam kəndinə qədər 40 km-ə yaxın məsafədə avtomobil yolları nəqliyyatın hərəkəti üçün tam normal vəziyyətə gətirilmişdir. Qısa müddətdə Toradi kəndinə qədər yollarda təmizlənmə və yataq işləri başa çatdırılacaqdır.



Tikinti təşkilatının nümayəndəsi Ramiz Ağayev söhbət zamanı bildirdi ki, çox çətin və mürəkkəb relyefə malik dağlıq ərazidə müasir standartlara cavab verən avtomobil yolunun çəkilişi heç də asan deyil. İş zamanı biz çox çətinliklərlə rastlaşırıq. Elə vaxt olur ki, nəzərdə tutulmayan işlərin görülməsi məcburiyyəti qarşısında qalırıq. Rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev daim bizim işimizlə maraqlanır, rast gəldiyimiz çətinliklərin aradan qaldırılmasına yaxından köməklik göstərir. Məhz onun təşəbbüsü və yaxından köməkliyi ilə avtomobil yolunun daha da genişləndirilməsi, suötürücü kanalların qazılması, suburaxan boruların qoyulması istiqamətində konkret tədbirlər həyata keçirmişik. Şübhəsiz ki, yol çəkilişində ətraf kəndlərin sakinləri yaxından köməklik göstərirlər. Biz avtomobil yollarının yüksək standartlara uyğun olaraq yenidən qurulması üçün xaricdə istehsal olunmuş ən müasir texnikadan, ağırtonnajlı yük maşınlarından, qayaları və daşları parçalayan ekskavator, buldozer və qreyderlərdən istifadə edirik. Əlbəttə, dar və keçilməz yollarda belə texnikadan istifadə edilməsi çox çətin və risklidir. Lakin biz möhtərəm Prezidentimizin Sərəncamının layiqincə yerinə yetirilməsi üçün bütün çətinliklərə dözür, işlərin yüksək keyfiyyətlə başa çatdırılması üçün qüvvələrimizi səfərbərliyə alırıq.





Asxanakəran kənd sakini, "Tərəqqi" medallı müəllim Arif Əliyev ölkə rəhbərinin müvafiq Sərəncamı ilə bu dağlara təkcə yol yox, yeni həyat, böyük rahatlıq, xoşbəxtlik bəxş etdiyini qeyd edərək, bütün sakinlər adından cənab İlham Əliyevə minnətdarlığını bildirdi. Kənd ağsaqqalı Ramiz Gənciyev də illərdən bəri həsrətində olduqları geniş və rahat yolun çəkilişinə görə minnətdarlığını dilə gətirdi. Onun 95 yaşlı anasının "Mənim Prezidentimə dilimdən minnətdarlıq teleqramı göndər" deməsini eşitmək isə doğrudan da bu yolun böyükdən kiçiyə qədər bütün kənd sakinlərinin həyatında nə qədər əlamətdar olduğunu aydınlığı ilə göstərir. Kənd sakinlərindən Şirməmməd Fərəcov, Zülqədər Lələyev, Güləli Məlikov və başqaları da ölkə başçısına minnətdarlıqlarını bildirdilər.

Böyük inkişaf yolunda olan Azərbaycanın son illərdə həyata keçirdiyi irimiqyaslı layihələrlə təkcə şəhər və qəsəbələr deyil, ən ucqar dağ kəndləri də bəhrələnir. Təkcə son 5 ildə rayonumuzda salınan 100 km-dən çox asfalt yolun yarıdan çoxu dağ kəndlərinin payına düşür. Son iki ildə dağ kəndlərində fəaliyyət göstərən 10-a yaxın ümumtəhsil məktəbi - Pəlikəş, Toradi, Hamoşam, Asxanakəran, Motlayataq kənd tam orta, Amboba və Əzərüd kənd ibtidai məktəbləri üçün müasir tələblərə uyğun məktəb binalarının tikilərək yeni inventar və avadanlıqlarla təmin edilmiş, Sım və digər kəndlərdə yeni məktəblərin tikintisinin davam etdirilməsi ölkəmizin böyük iqtisadi gücünün təzahürüdür.

Çox keçməyəcək ki, Taxtanəkəran-Miki və Taxtanəkəran-Toradi istiqamətində yerləşən iyirmi mindən çox əhali və Toradi kəndi ilə həmsərhəd olan Lerik rayonunun 7 kəndinin minlərlə sakini rahat asfalt yoldan istifadə edəcəklər. Nadir təbiət gözəlliyinə malik bu dağlıq ərazi rahat yoldan sonra turistlərin tez-tez gəldikləri məkana çevriləcəkdir.

✍ **Azər Abdullayev,**
"Astara" qəzetinin
baş redaktoru